

*Sözsüz ki, hər bir xalq yetirdiyi böyük şəxsiyyətlərlə fəxr edir. Bu baxımdan xalqımız da istisnalıq təşkil etmir.*

*Azərbaycan dünya mədəniyyəti xəzinəsinə ədəbiyyat, incəsənət və musiqi sahəsində dahi, əvəzsiz incilər bəxş etmişdir. Xalqımız bu inciləri yaradan sənətkarlarla haqlı olaraq öyünür.*

*Milli musiqimizin tarixini özündə cəmləşdirən muğam xalqımızın ruhudur, mənəvi dünyasıdır, psixologiyasıdır. Muğam insanlıq tarixinin keçib gəldiyi yolun, hiss və duyğularının, eyni zamanda mübarizə, sevgi, mərhəmətinin ensiklopediyasıdır.*

# Bir qaynar bulağın ecazkar səsi

maz xanəndə bu gün də sevdiyi sənətinə xidmət etməkdədir. Səsinə hakim kəsilməmək qeyri-mümkündür.

Canəli Əkbərov yaradıcılığı ilə bərabər pedaqoji fəaliyyətlə də məşğuldur. O, professor T.İ.Əfəndiyevin dəvətilə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Musiqi sənəti" fakültəsinin "Muğam sənəti" kafedrasına rəhbərlik edir. Professor C. Əkbərov muğam sənətinin sirlərini gənc nəsilə öyrədir. Eyni zamanda Azərbaycan Milli Konservatoriyasında, A. Zeynallı adına Musiqi Kollecində də öz tələbələrinə xanəndəlik sənətinin sirlərini öyrədir. O hazırda rəhbərlik etdiyi "Muğam sənəti" kafedrası üzrə ixtisasın bütün metodik ədəbiyyatın, fənn proqramlarının hazırlanmasına nail olmuşdur.

Universitetimizin Musiqi sənəti fakultəsinin dekanı, dosent Vamiq Məmmədəliyev Canəli müəllimin yaradıcılığını və pedaqoji fəaliyyətini həmişə yüksək qiymətləndirərək, "Canəli Əkbərov indiyə qədər nəyə nail olubsa, yalnız öz gücünə nail olub" deyir. Vamiq müəllim də sənətkardır, o bu yolun necə əzab-əziyyətli olduğunu bilir. Bu baxımdan da Vamiq müəllim əsl sənətkarlığa, əsl sənətə yüksək qiymət verməyi bacarır.

Bəli, Canəli Əkbərov oxuyarkən, onun ecaskar səsini dinləməmək, ürəkdən zövq almamaq mümkün deyil. Bu 30 – 40 il bundan əvvəl də belə idi, indi də belədir.

Canəli Əkbərovun sənət ideyalı böyük, əvəzsiz sənətkar Xan Şuşinskidir. "Keçmişim, bu günüm, hətta gələcəyim, bu vaxtacan qazandığım bütün uğurlar Xan əminin əməyi ilə bağlıdır" – deyir Canəli müəllim.

İlk müəllimi atası xanəndə Xanəli Əkbərov olsa da, bu sənətin eniş-yoxuşunu, elmi-nəzəri və praktiki xüsusiyyətlərini Xan Şuşinskidən öyrənmişdir. Sənətkarın atası dövrünün tanınmış xanəndəsi olan Xanəli Əkbərovun da muğam ifaçılığında əvəzsiz xidmətləri olmuşdur.

C. Əkbərov Azərbaycan milli operamızın səhnəsində bir – birindən maraqlı, gözəl, xaraktercə müxtəlif obrazların mahir ifaçısı olmuşdur. Opera teatrının səhnəsində Məcnun (" Leyli və Məcnun"), Şah İsmayıl ("Şah İsmayıl"), Camal ("Gəlin qayası"), Mirseyid ("Xanəndənin taleyi"), Qərib ("Aşıq Qərib"), Azançı ("Sevil") və sair kimi xaraktercə müxtəlif obrazlar yaratmışdır. Sənətkar haqqında kitab, saysız məqalələr, poema və şeirlər yazılmışdır. Əlbəttə ki, bunlar sənətkara olan hörmət və sevgidən yaranmışdır.

Bəli, Canəli Əkbərov bütün bunlarla yanaşı, qayğıkeş atadır, babadır, bir sözlə müdrik ailə başçısıdır.

Bu gün xalqımız, xüsusən gənclərimizin böyük bir qismi muğamı dərk edir və sevirlər.

Canəli müəllim həyatdakı yaxşı işlərindən həmişə zövq alır. Etdiyi yaxşılıqları təmənnasız edir, əvəzində isə gözlərdə və üzlərdə yalnız təbəssüm, nur görmək istəyir. Onun həssaslığı, kövrəkliyi isə hər an qəlbinin aynasından boylanır.

Canəli müəllim sizlər yaşayın, yaşayın ki, qoy muğamlarımız da yaşasın!

**Nailə QASIMOVA,**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin əməkdaşı**